Azərbaycan Respublikası
Mədəniyyət və Turizm Nazirliyi

İLHAM RƏHİMLİ

# AZƏRBAYCAN TEATR ENSİKLOPEDİYASI

## ÜÇ CİLDDƏ

## I CİLD

Azərbaycan Milli
Kitabxanası

BAKI – 2016



## ƏLİ ZÜLALOV

*(13.9.1893, Şuşa – 18.2.1963, Bakı). Xanəndə-aktyor.*

Əli Əbdül oğlu Zülalov opera müğənnisi Qəmbər Zülalovun böyük qardaşıdır. Səhnə fəaliyyətinə 1917-ci ildə Şuşa şəhərində başlayıb. 1920-ci illərin əvvəllərindən Akademik Milli Dram Teatrının musiqili tamaşalarında çıxış edib. Opera truppası 1925-ci ildə Milli Dram Teatrından ayrılıb. Əli Zülalov həmin vaxtdan 1952-ci ilə kimi Azərbaycan Dövlət Opera və Balet Teatrında çalışıb. 23 fevral 1940-cı ildə Azərbaycan Respublikasının Əməkdar artisti fəxri adı ilə təltif olunub.

Şirin avazla, klassik Qarabağ xanəndəlik məktəbinin estetik prinsipləri əsasında oxuyurdu. Səsindəki xoş məlahət və kövrək yanğı oynadığı səhnə surətlərinə cazibə verirdi.

*İfa etdiyi əsas rollar:* Məhbus və Keçəçi, Məcnunun anası, Məcnunun atası və Leylinin atası, Paşa, Ehsan paşa («Şah Abbas və Xurşid banu», «Leyli və Məcnun», «Əsli və Kərəm» və «Koroğlu», Üzeyir bəy Hacıbəyli), Əbu Həmzə, Molla Mütəllim («Şah İsmayıl» və «Nərgiz», Müslüm bəy Maqomayev), Şahvələd («Aşıq Qərib», Zülfüqar bəy Hacıbəyli), Hacı Əhməd («Şahsənəm», Reynqold Qlier).



***«Koroğlu», Üzeyir bəy Hacıbəyli.*** *Ehsan paşa – Əli Zülalov*